**“İcraçı Kredit Agentliyi” Məhdud Məsuliyyətli Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı**

*Hər birinin nominal dəyəri 200 (iki yüz) manat olan 495 (dörd yüz doxsan beş) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların*

# İNFORMASİYA MEMORANDUMU

**Bakı-2023**

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu İnformasiya Memorandumunda olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir

İnformasiya Memorandumunun tərtib edilməsində iştirak edən şəxslər və İnformasiya Memorandumunda təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Bu İnformasiya Memorandumunu tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. "İcraçı Kredit Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı hər birinin nominal dəyəri 200 (iki yüz) manat olan, 495 (dörd yüz doxsan beş) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazlarının İnformasiya Memorandumuna daxil edilən məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"İcraçı Kredit Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının**
**Direktoru: Cəlilov Samir Fəxrəddin oğlu** ____________
**01.11.2023**

**"İcraçı Kredit Agentliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatının**
**Baş mühasibi:**
**Qarayeva Mələk Ağayar qızı** ____________

**01.11.2023**

"İCRAÇI KREDİT AGENTLİYİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT • BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## M Ü N D Ə R İ C A T


XÜLASƏ. .......... 3

Xəbərdarlıq .......... 4

Emitent haqqında məlumat. .......... 4

Qiymətli kağızlar haqqında məlumat. .......... 6

Risk faktorları .......... 8

Təklif .......... 8

## İNFORMASİYA MEMORANDUMU

### 1.Xəbərdarlıq.

**1.1.** Bu sənəd İnformasiya Memorandumunun giriş hissəsidir;

**1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun e İnformasiya Memorandumunu oxuduqdan sonra həyata keçiriliməlidir;

**1.3.** İnformasiya Memorandumunda olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

### 2.Emitent haqqında məlumat

**2.1.** **Emitentin tam adı**:“İcraçı Kredit Agentliyi” Məhdud Məsuliyyətli Cəmiyyəti Bank Olmayan Kredit Təşkilatı, (bundan sonra-emitent).

**2.2.** **Emitentin olduğu yer və təşkilati hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, AZ 1141, Bakı şəhəri, Yasamal rayonu, Ə.Haqverdiyev küçəsi, ev 1, 574-cü məhəllə, mənzil 4., Məhdud Məsuliyyətli Cəmiyyət

**2.3.** **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

“İcraçı Kredit Agentliyi” MMC BOKT əsasən pərakəndə və mikro biznes kredit bazarında fəaliyyət göstərir.

Hazırki dövrdə kredit təşkilatlarına əsas təsir edən tendensiyalar valyuta riskləri və portfel keyfiyyəti “İcraçı Kredit Agentliyi” MMC BOKT -da qənaətbəxş idarə olunur. Belə ki təşkilatın portfelində prospektin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfeli milli valyutada formalaşdırılmışdır. Kredit portfelinin 30 gündən çox gecikmə nisbəti göstəricisi 85192.93 manat (20.2%) ətrafında idarə olunur ki, bunun da 68834.08 manat hissəsi (16.4%) “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər” haqqında Azərbaycan Respublikası Prezidentinin 28.02.2019-cu il tarixli Fərmanın icrası ilə bağlı görülən tədbirlər çərçivəsində müvafiq qaydada restrukturizasiya edilmiş kreditlər təşkil edir. Belə ki, bu kreditlər vaxtıilə (*2012-2014-cü il müddətində*) BOKT-in agent qismində cəlb olunduğu Dünya Bankının məlum Layihəsi çərçivəsində bölgələrdə yaradılmış Birgə Borclu Qruplarına paylanmış kreditlərdir. BOKT tərəfindən Layihədən kənar paylanmış kredit üzrə qalıq 317600.98 manat, bunun da 30 gündən çox gecikmə nisbəti göstəricisi 16358.85 manat (5.15%) ətrafında qeydə alınmışdır.

“İcraçı Kredit Agentliyi” MMC BOKT, strateji olaraq, kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir. Diversifikasiya tədbirləri partnyor, region, sektor və digər meyarlar üzrə həyata keçirilir ki, bu da kredit portfelinin daha keyfiyyətli və risksiz idarə olunması üçün önəmlidir.

**2.4.** **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin digər hüquqi şəxslərdə mövqeyi mövcud deyil.

**2.5.** **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

Kənar audit rəyinə əsasən, "İcraçı Kredit Agentliyi" MMC BOKT -nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir;

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlıumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

**(Azərbaycan manatı ilə)**

| **Göstəricilər** | **2022<br>Audit olunmuş** | **2021<br>Audit olunmuş** | **2020<br>Audit olunmuş** |
|---|---|---|---|
| **Xalis mənfəət** | (160 547) | (236 102) | (761 630) |
| **Cəmi öhdəliklər** | 139 937 | 569 625 | 536 880 |
| **Cəmi kapital** | 1 172 345 | 1 332 892 | 1 568 994 |
| **Cəmi aktivlər** | 1 312 282 | 1 902 517 | 2 105 874 |
| **Kredit portfeli** | 914 856 | 939 401 | 1 176 079 |
| **Pul vəsaitləri** | 10 916 | 1 623 | 1 368 |

Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişiklik olmamışdır; 2023-cü il maliyyə hesabatları auditor tərəfindən təstiq olunmadığı üçün, yalnız 9 aylıq maliyyə göstəriciləri müqayisəli verilir:

| **Göstəricilər** | **2023<br>I Rüb** | **2023<br>II Rüb** | **2023<br>III Rüb** |
|---|---|---|---|
| **Xalis mənfəət** | 32157.67 | 21386.88 | 64088.94 |
| **Cəmi öhdəliklər** | 542893.8 | 481236.42 | 435792.49 |
| **Cəmi kapital** | 627733.15 | 619760.96 | 674463.02 |

| | | | |
|---|---|---|---|
| **Cəmi aktivlər** | 1170627.15 | 1100997.38 | 1110254.59 |
| **Kredit portfeli** | 399768.73 | 406223.54 | 418548.17 |
| **Pul vəsaitləri** | 892.95 | 3013.86 | 1687.69 |

**2.8. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:**

Təşkilatın ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| **Göstəricilər** | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 22 651.76 | 53 783.48 | 75 852.05 |
| PAR>30/Portfel (%) | 1.93% | 5.73% | 8.29% |

BOKT ödəmə qabiliyyətinə təsir edən maliyyələşmə mənbələrini davamlı olaraq diversifikasiya edir. Belə ki, təşkilatın əsas maliyyələşmə mənbələri kapital, bank öhdəlikləri və istiqraz portfelidir.

**2.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:**

“İcraçı Kredit Agentliyi“ MMC BOKT AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız istehlak və biznes kreditləri verə bilər.

**2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xusisiyyətləri:**

“İcraçı Kredit Agentliyi“ MMC BOKT -nin nizamnamə kapitalının mühüm iştirak payına sahib olan şəxslər Arif Əliyev Lütvəli oğlu, Mehman Qurbanov Baləhmət oğlu Siyavuş Verdiyev Səyyaf oğludur. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçıların ümumi yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi yığınaqda qərarlar AR Mülki Məcəlləsi və Cəmiyyətin nizamnaməsinə əsasən qəbul edilir.

## 3.Qiymətli kağızlar haqqında məlumat

**3.1. İstiqrazların növü:** faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar;
**3.2. İstiqrazların valyutası:** Azərbaycan manatı;
**3.3. İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** mövcud deyil;
**3.4. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 14 (on dörd) faiz olmaqla, istiqrazların tədavül müddəti

ərzində faiz gəliri almaq;

- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 14 (on dörd) % təşkil edir. İstiqrazların nominal dəyərinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 24 ay. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 90 gündən bir ödəniləcəkdir;

**3.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmişdir.

**3.7. İstiqrazların geri satın alınma şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması nəzərdə tutulmur.

**3.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir: TF=(N*D*G/360)/100

Burada,

TF- Bir istiqraz üzrə toplanmış faizlər;

N- Bir istiqrazın nominal dəyəri -200 (iki yüz) manat;

D- İstiqrazların illik gəlirlik dərəcəsi-14 (on dörd);

G- istiqrazların faiz ödəniş dövrünün müddəti -90 gün;

**3.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların mülkiyyətçisinin təmsilçisi mövcud deyil.

**3.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmişdir.

**3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda səhmlərin ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi İnformasiya Memorandumu dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin (BFB) ticarət platformasında birqiymətli hərrac vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən İnformasiya Memorandumu təsdiq edilib, istiqraz buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Tənzimlənən bazarda ticarətə buraxılma BFB tərəfindən təsdiq edilmiş "Bakı Fond Birjası" QSC-də qiymətli kağızların listinqə daxil olunması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili Qaydaları" na əsasən həyata keçirilir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "Azəri Türk Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və

hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.ia-az.net) açıqlanır.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" -ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.azTel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 4.Risk faktorları

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski- faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski- pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski- daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski- borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski- müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranmasının mümkünlüyü;
- Təbii risk- insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski- valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

- Kəskin devalivasiyanın olması - müştərilərimizin öhdəliklərin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəyiflənməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır. Eyni zamanda 30.09.2023-cü il tarixə xarici valyutada öhdəliyi və kredit portfeli mövcud deyil.

## 5.Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Kredit məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və əhalinin kredit tələblərini təmin etməklə öz mövqeyini qoruyub artırmağı nəzərdə tutub. Həmçinin təklifin səbəbi mənfəətin əldə edilməsidir;

**5.2. Təklifin şərtlərinin təsviri:**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin

yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Kütləvi təklif edilən investisiya qiymətli kağızlarının dəyəri yalnız pulla ödənilir və bu pul vəsaiti kliring təşkilatının üzvü olan banklarda emitentin açdığı müvəqqəti cari hesabda saxlanılır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən “Azəri Türk Bank” ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. İstiqrazların dəyərinin ödənilməsi qaydası “Qiymətli kağılar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu” və “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar” ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini bu informasiya memorandumunda müəyyən edilmiş bankda açılmış müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.ia-az.net) açıqlanır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat-** Emissiyada iştirak edən şəxslər arasında maraqlar münaqişəsi mövcud deyil. Emissiyada emitentə aidiyyəti olan və digər əlaqəli şəxslər iştirak etmir.

***“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti***

İnformasiya Memorandumunda iştirak edən “Bakı Fond Birjası” QSC (bundan sonra-BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli “fond birjası fəaliyyəti” -ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

- dövlət qiymətli kağızları bazarının;
- korporativ qiymətli kağızlar bazarının;
- törəmə maliyyə alətləri bazarının.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

***Milli Depozit Mərkəzi***

Milli Depozit Mərkəzi (bundan sonra-MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və

əlaqələndirən Mərkəzi Depozitardır.
İnformasiya Memorandumunda MDM-in vəzifələri aşağıdakılardır: qiymətli kağızların saxlanması və uçotunun aparılması;
qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması və “Qiymətli kağızlar bazarı haqqında” Qanunun 17.1-ci maddəsində göstərilmiş digərvəzifələr.

***Anderrayter***
“İNVEST-AZ İnvestisiya Şirkəti” QSC 09 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən verilmiş 087986 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. Bu emissiyanın anderrayteri kimi (öhdəlik götürmədən) Emitentin bütün satış sifarişlərini hərrac zamanı Birjaya təqdim edir, BFB-nin ticarət sistemi vasitəsi ilə istiqrazların yerləşdirilməsi xidmətlərini göstərir.

Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar İnformasiya Memorandumu qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşmasına yol açan hallar mövcud deyil.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslər 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində kütləvi təklif və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz (kupon) gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat Emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır. Istiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaqdır.

Xərclər
- əqdin məbləğinin 0,02%-i həcmində BFB komissiyası;
- investisiya şirkətinin komisyon haqqı: investisiya şirkəti ilə investor arasında bağlanılmış müqavilədən asılı olaraq dəyişir;
- “depo” hesab açılması üçün 10 manat;
- hesablaşma agentində olan bank hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (bankdan asılı olaraq dəyişir).